# GÜRCÜSTAN

SAYI 45-46 (13.415)
CÜMƏ 13 İYUN 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## VİKTOR ORBAN: "GÜRCÜSTANIN SUVERENLİYİNİ Aİ QARŞISINDA MÜDAFİƏ EDƏCƏYİK"



Macarıstanın Baş naziri Viktor Orban Baş nazir İrakli Kobaxidze ilə keçirdiyi birgə mətbuat konfransında Gürcüstanın Avropa İttifaqına (Aİ) inteqrasiyası prosesinə dəstək mesajı verib. Orban bəyan edib ki, Macarıstan Gürcüstanın suverenliyi və müstəqilliyini yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, eyni zamanda Avropa İttifaqı səviyyəsində də qətiyyətlə müdafiə edir. *"Biz Gürcüstanı Avropa İttifaqı qarşısında onun suverenliyini və müstəqilliyini qorumaq üçün apardığı bütün mübarizələrdə təmsil edirik. Brüsselin nə düşündüyündən asılı olmayaraq, Gürcüstanın Aİ-yə doğru möhkəm addım atması üçün əlimizdən gələni edəcəyik"*, – deyə Orban bildirib. Macarıstan hökumət başçısı ölkəsinin Gürcüstanla iqtisadi əməkdaşlıq, tərəfdaşlıq və birgə nailiyyətlər istiqamətində əlaqələrin daha da dərinləşdirilməsində maraqlı olduğunu da vurğulayıb: *"Mən Gürcüstanı hər zaman Macarıstanın müttəfiqi kimi görürəm və bu dostluğa görə gürcü tərəfdaşlarımıza təşəkkür edirəm"*, – deyə V. Orban əlavə edib.

### TƏHSİL

## PARLAMENT "ALİ TƏHSİL HAQQINDA" QANUNA DƏYİŞİKLİK EDİB

***2025-ci il sentyabrın 1-dən etibarən Gürcüstanın ali təhsil müəssisələrində bakalavriat səviyyəsində gürcü dilinin tədrisi məcburi olacaq.*** Bu barədə ölkə Parlamentinin Təhsil, Elm və Gənclər İşləri Komitəsinin sədri Qivi Mikanaşvili məlumat verib. Parlamentin plenar iclasında üçüncü oxunuşda qəbul edilən "Ali təhsil haqqında" qanuna edilən dəyişikliklərə əsasən, dövlət dilinin xüsusi kursu bakalavriat, müəllim hazırlığı, inteqrasiya olunmuş bakalavr-maqistratura, baytarlıq və stomatologiya sahəsində inteqrasiya olunmuş dövlət dilində magistratura proqramlarının, eləcə də diplomlu təhsil proqramlarının tərkib hissəsi olacaq. Həmçinin, proqrama Abxaziya Muxtar Respublikasında abxaz dilinin xüsusi kursu da daxil edilib.



## GÜRCÜSTAN DİPLOMLARI ÇİNDƏ DƏ TANINACAQ



***Gürcüstan və Çin arasında ali təhsil diplomları və sertifikatlarının qarşılıqlı tanınması barədə razılaşma imzalanıb.***

Bu barədə hökumətin 9 iyun tarixli qərarında bildirilib və sənəd həmin gündən qüvvəyə minib.

Qərara əsasən, Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında ali təhsilin keyfiyyəti və diplomların/sertifikatların qarşılıqlı tanınması ilə bağlı razılaşma təsdiqlənib.

Gürcüstan Xarici İşlər Nazirliyi qərarın birinci maddəsində göstərilən razılaşmanın bağlanması barədə Gürcüstan prezidenti və parlamentinə məlumat verməli, həmçinin Çin tərəfini zəruri daxili prosedurların tamamlanması barədə məlumatlandırmalıdır.

## VAHİD MİLLİ İMTAHANLARIN BAŞLAYACAĞI TARİX MƏLUM OLUB

***İmtahan prosesinə bu il iyulun 3-də vahid milli imtahanlarla start verililir.***

Bu barədə məlumatı Milli İmtahan Mərkəzi yayıb.

*"İmtahan tarixi, imtahan yerinə gəlmə vaxtı və imtahan mərkəzinin ünvanı ilə bağlı ətraflı məlumat imtahan buraxılış vərəqəsində qeyd olunacaq. İmtahan iştirakçıları buraxılış vərəqəsini 20 iyundan sonra öz qeydiyyat səhifələrindən çap edə biləcəklər* "– deyə mərkəzin açıqlamasında bildirilir.

İmtahan mərkəzləri Tbilisi, Batumi, Zuqdidi, Kutaisi, Poti, Axaltsixe, Qori, Ozurgeti, Rustavi, Telavi, Xulo və Ambrolauridə fəaliyyət göstərəcək.



Builki milli imtahanlara təxminən 80 min nəfər qeydiyyatdan keçib. İmtahanlar 22 iyulda başa çatacaq.

## BAŞ NAZİR TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ OLUB



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze ölkənin müsəlman icmasını Qurban Bayramı münasibətilə təbrik edib.***

Hökumət başçısı bayram münasibətilə Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri ilə birlikdə Tbilisi Cümə Məscidində olub.

Baş nazir ölkənin inkişafında müsəlman icmasının mühüm rolundan danışıb və qeyd edib ki, dövlət onlara dəstəyini gələcəkdə də davam etdirəcək.

*"Bu qədər milli, həm də dini müxtəlifliyimizlə ölkəmiz qürur duyur. Aramızda formalaşmış münasibətlər və dostluq bizim üçün böyük qürur mənbəyidir. Biz bu münasibətləri böyük diqqətlə qoruyuruq və gələcəkdə də qoruyacağıq. Gürcüstan hökuməti müsəlman icmasının maraqlarına maksimal dərəcədə diqqət göstərir və bu qayğı gələcəkdə də davam edəcək. Siz ölkəmizin irəliləyişi və inkişafında çox böyük rol oynayırsınız və bunun üçün sizə dərin təşəkkürümü bildirirəm"*, – deyə İrakli Kobaxidze qeyd edib.

Məsciddə toplaşmış müsəlman inanclı insanları Qurban Bayramı münasibətilə Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze, Gürcüstan Müsəlmanları İdarəsinin Qərbi Gürcüstan üzrə müftisi Adam Şanstadze, Şərqi Gürcüstan üzrə Etibar Eminov və şeyxi Faiq Nabiyev də təbrik ediblər. Qurban Bayramı ilə bağlı tədbirə diplomatik korpusun nümayəndələri də qatılıblar.

## TAMAR TALİAŞVİLİ ABŞ-da GÜRCÜSTANIN SƏFİRİ VƏZİFƏSİNƏ NAMİZƏD GÖSTƏRİLİB



Gürcüstan hökuməti Tamar Taliaşvilini ABŞ-da Gürcüstanın fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə namizəd olaraq irəli sürüb. Bu barədə qərar hökumətin rəsmi sərəncamında əks olunub. Sərəncama əsasən, Gürcüstan Konstitusiyasının 52-ci maddəsinin 1-ci hissəsinin "a" bəndinə və "Gürcüstan hökumətinin strukturu, səlahiyyətləri və fəaliyyəti haqqında" qanunun 5-ci maddəsinin "ğ" bəndinə uyğun olaraq, 2025-ci il 10 iyul tarixindən etibarən Tamar Taliaşvilinin namizədliyi prezidentə təqdim olunacaq. Sənədi Gürcüstanın Baş naziri İrakli Kobaxidze imzalayıb. Bununla yanaşı, 9 iyun tarixində imzalanmış digər sərəncama əsasən, Baş nazir İrakli Kobaxidze Tamar Taliaşvilinin Avropa Şurasında Gürcüstanın daimi nümayəndəsi vəzifəsindən azad olunması ilə bağlı Mixeil Kavelaşviliyə rəsmi təklif ünvanlayıb.

## POTİDƏ KONTEYNER TERMİNALININ RƏSMİ AÇILIŞI OLUB

***Gürcüstanın Poti şəhərində yeni multimodal kompleksin konteyner terminalının açılış mərasimi olub. Tədbirdə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf nazirinin müavini Quram Quramişvili iştirak edib.***

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinə istinadən xəbər verir ki, mərasimdə çıxış edən Quram Quramişvili yeni terminalın Orta Dəhlizin keçdiyi ölkələr arasında uğurlu əməkdaşlığın parlaq nümunəsinə çevrildiyini vurğulayıb. Onun sözlərinə görə, layihə tərəfdaşların birgə səyləri və sərmayələri, eləcə də bütün mərhələlərdə - tikintidən istifadəyə verilməsinə qədər səmərəli qarşılıqlı fəaliyyət sayəsində həyata keçirilib.

*"Multimodal terminalın açılışı həqiqətən də sevindirici hadisədir, çünki uzun illərdir ki, regionda bu qədər sərmayə qoyuluşu və bu qədər yüksək texnologiya səviyyəsi olan layihələr həyata keçirilməyib. Orta Dəhliz üzrə daşımaların strukturu ilə tanış olan nəqliyyat mütəxəssisləri terminalın blok daşıma üçün tam uyğunlaşdırıldığını görəcəklər. Bizim üçün son dərəcə vacib olan marşrutun rəqabət qabiliyyətini artıracaq yüksək xidmət keyfiyyətidir"*, - deyə nazir müavini qeyd edib.

Açılış mərasimində Qazaxıstanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Malik Murzalin, Qazaxıstan Nəqliyyat Nazirliyinin nümayəndəsi Kasım Tlepov, həmçinin Çin və Azərbaycan nümayəndə heyətləri də iştirak ediblər.

Layihə Qazaxıstan və Gürcüstan arasında tərəfdaşlıq çərçivəsində yaradılmış "PotiTransTerminal" SC tərəfindən həyata keçirilib. Tikintiyə ümumi investisiya 31,5 milyon ABŞ dolları təşkil edib.

Terminal Poti limanının yaxınlığında yerləşir və 9 hektardan çox ərazini tutur. İstismarın ilk mərhələsində o, ildə 80 mindən çox konteyneri idarə edə biləcək. Əməliyyat şirkətinin məlumatına görə, terminal eyni vaxtda 120 vaqona xidmət göstərə biləcək, işçilərin sayı isə 100 nəfəri keçəcək.

Kompleks həm beynəlxalq, həm də ölkədaxili yükdaşımalarına xidmət göstərmək, həmçinin regional tranzit çərçivəsində Gürcüstan, Azərbaycan və Ermənistana gedən yüklərin emalı üçün nəzərdə tutulub.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KADR DƏYİŞİKLİKLƏRİ EDİLİB



***Daxili İşlər Nazirliyində geniş kadr dəyişiklikləri həyata keçirilib.***

Nazirlik tərəfindən yayılan rəsmi məlumata görə, dəyişikliklər bir neçə mühüm vəzifəni əhatə edir.

Məlumata əsasən, Mərkəzi Cinayət Polisi Departamentinin direktoru Teimuraz Kupatadze Dövlət Mühafizə Polisi Departamentinin sədri vəzifəsinə təyin olunub. Onun yerinə isə Mərkəzi Cinayət Polisi Departamentinin direktor müavini David Kiknadze təyin edilib.

Tbilisi Polis Departamentinin direktoru vəzifəsinə Vaja Siradze təyin edilib. Departamentin əvvəlki direktor müavini Levan Maisuradze isə Patrul Polis Departamentinin direktoru olub.

Tbilisi Polis Departamentinin sabiq rəhbəri Laşa Qoqniaşvili Kaxeti Polis Departamentinə rəhbərlik edəcək. Kaxeti Polis Departamentinin keçmiş direktoru Teimuraz Kalandadze isə Mtsxeta-Mtianeti Polis Departamentinin direktoru təyin olunub.

Kvemo Kartli Polis Departamentinə Levan Kvitsiani rəhbərlik edəcək. Departamentin əvvəlki rəhbəri Quram Natsvlişvili isə Samtsxe-Cavaxeti Polis Departamentinin direktoru vəzifəsinə gətirilib.

Samtsxe-Cavaxeti Polis Departamentinin keçmiş rəhbəri Ramaz Tataraşvili İmereti Polis Departamentinin direktoru təyin olunub. İmereti Polis Departamentinin rəhbəri Zaza Tsxakaia isə Quriya Polis Departamentinə təyinat alıb.

Şida Kartli Polis Departamentinin direktoru vəzifəsinə Tbilisi Polis Departamentinin direktor müavini Kaxaber Muradaşvili təyin edilib.

Daxili İşlər Nazirliyinin yaydığı rəsmi məlumatda qeyd olunub ki, aparılan kadr dəyişiklikləri sistemin daha da gücləndirilməsi və inkişafına yönəlib.

# KOMİTƏ QANUN LAYİHƏSİNƏ DƏSTƏK VERDİ: *TƏNZIMLƏYİCİ ORQAN MƏHKƏMƏ QƏRARI İLƏ BANKLARDAN MEDİA HAQQINDA MƏXFİ MƏLUMAT ALA BİLƏCƏK*

***Gürcüstan Parlamentinin Hüquq Məsələləri Komitəsi birinci oxunuşda "Yayım haqqında" qanuna və digər əlaqədar qanunlara dəyişiklikləri prinsip səviyyəsində dəstəkləyib.***

Dəyişikliklərə əsasən, Elektron Kommunikasiya üzrə Milli Komissiya (EKMK) məhkəməyə müraciət edərək kommersiya banklarından və mikromaliyyə qurumlarından yayımçılarla bağlı məxfi məlumat tələb edə biləcək.

Qanun layihəsi "Gürcü Arzusu" partiyasının deputatları tərəfindən hazırlanıb və cari həftə parlamentin plenar iclasında müzakirəyə çıxarılacaq.

Qanun dəyişikliyi, EKMK-nin, yayımçının maliyyələşməsi ilə bağlı məlumatı təqdim etmədiyi hallarda, məhkəmənin vasitəçiliyi ilə həmin məlumatları banklardan əldə etməsinə imkan verir. Bu mexanizm, yayım fəaliyyətinə dair məhdudiyyətlərə riayət olunmasını təmin etməyə yönəlib. Belə ki, qanun yayımçıların dövlət orqanları, siyasi partiyalar və ya xarici qüvvələr tərəfindən maliyyələşdirilməsini qadağan edir.

Layihənin müəlliflərinin izahına görə, hazırda qüvvədə olan sanksiyalar – xəbərdarlıq, cərimə və ya yayım lisenziyasının dayandırılması – bu tip halların qarşısını effektiv şəkildə almağa kifayət etmir. Məhkəməyə müraciət imkanının əlavə edilməsi qanunun icrasını təmin etmək üçün daha səmərəli vasitə hesab olunur.

Qeyd olunur ki, hazırkı qanuna əsasən, EKMK yayımçılardan lisenziya şərtləri, davranış kodeksi və müəllif hüquqlarının qorunması ilə bağlı sənədləri tələb edə bilər. Lakin məlumat təqdim olunmadığı halda tətbiq olunan cəza mexanizmləri, xüsusən də lisenziyanın dayandırılması, yalnız bir il ərzində üçüncü dəfə pozuntu halı olduqda mümkündür. Bundan əlavə, belə qərarlar məhkəməyə şikayət edildikdə avtomatik olaraq dayandırılır.

Komitə qeyd edir ki, yayımçının maliyyələşməsi məsələsi cəmiyyətin müxtəlif qrupların qeyri-qanuni təsirlərindən qorunması baxımından yüksək ictimai maraq doğurur və buna görə də daha güclü və effektiv nəzarət mexanizminin yaradılması zəruridir. Bu məqsədlə tənzimləyici orqana, yayımçıdan məlumat əldə edə bilmədikdə, məlumatı birbaşa banklardan almaq hüququ verilir.

# 15 İYUN AZƏRBAYCAN XALQININ MİLLİ QURTULUŞ GÜNÜDÜR

***Azərbaycanın Milli Qurtuluş Günü 15 iyun tarixində qeyd olunur. Bu gün 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmasını simvolizə edir.***

1991-ci ildə müstəqillik qazandıqdan sonra Azərbaycan ciddi siyasi və sosial böhranlarla üz-üzə qaldı. 1992–1993-cü illərdə ölkədə qeyri-sabitlik, silahlı qarşıdurmalar və dövlət çevrilişi təhlükəsi mövcud idi. 1993-cü ilin iyununda Gəncədə baş verən qiyam və ölkədə yaranmış xaotik vəziyyət səbəbindən o zamankı rəhbərlik istefa verdi və xalqın istəyi ilə Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Bu hadisə ölkədə sabitliyin və idarə olunan siyasi kursun başlanğıcı kimi qəbul olunur.

Milli Məclis 1997-ci ildə 15 iyun tarixini Milli Qurtuluş



Günü kimi təsis edib. Bu tarix həmin gündən etibarən hər il ölkədə dövlət səviyyəsində qeyd olunur və qeyri-iş günü elan edilib.

# GÜRCÜSTANDA SAHİBSİZ İTLƏRİN SAYININ AZALMASI ÜÇÜN YENİ QANUN LAYİHƏSİ HAZIRLANIR



***Gürcüstan hökuməti sahibsiz itlərin sayının azalması və heyvan sahiblərinin tapılmasının asanlaşdırılması məqsədilə yeni tənzimləyici qanun layihəsi hazırlayır.***

Bu barədə "Gürcü Arzusu" partiyasının icra katibi Mamuka Mdinaradze parlamentdə çoxluğun iclasından sonra məlumat verib.

Onun sözlərinə görə, qanun sahibsiz itlərin küçədə buraxılmasını qadağan edəcək və belə hallar yüksək inzibati cəza ilə nəticələnəcək:

*"Gürcüstan üzrə sahibsiz itlərin sayı 300 000-dən 350 000-ə qədər dəyişir. Dövlət proqramı çərçivəsində bu heyvanların müvafiq bazalara daxil edilməsi və onların çoxalmasının qarşısını alan prosedurların tətbiqi nəzərdə tutulur,"* — deyə Mdinaradze bildirib.

O əlavə edib ki, heyvan sahiblərinin tapılmasını asanlaşdırmaq üçün elektron proqram işlənəcək və itlərə "çip" kimi identifikasiya işarələri qoyulacaq:

*"Biz çalışırıq ki, heyvanları küçədə tərk etmək mümkün olmasın və hər kəs heyvanının tapılmasını təmin etməklə məsuliyyət daşısın,"* — deyə Mamuka Mdinaradze vurğulayıb.

Yeni qanun layihəsinin qəbulundan sonra sahibsiz heyvanların sayının azalacağı və şəhərlərdə heyvanların daha yaxşı idarə olunacağı gözlənilir.

## Sitat guşəsi



"Onlar [İran hakimiyyəti] sadəcə olaraq həyata keçirilə bilməyəcək bir şey istəyirlər. Onlar imtina etməli olduqlarından imtina etmək istəmirlər, [uranın] zənginləşdirilməsini [imkanını] axtarırlar".

**Donald Tramp,**
**ABŞ-nin prezidenti**



"Müdafiə sərmayəsi ilə yanaşı, müdafiə istehsalını da artırmalıyıq. Bu, sərfəli qiymətlərlə hərbi təchizatın artırılması deməkdir".

**Mark Rütte,**
**NATO-nun baş katibi**



"2023-cü ildə Çin Xalq Respublikasının Sədri Si Cinpin Qlobal Sivilizasiya Təşəbbüsünü irəli sürdü. O, ümumbəşəri dəyərlərin təşviqinə, sivilizasiya irsinin qorunmasına və innovativ inkişafına, humanitar mübadilənin və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə çağırış etdi. Bu, Çin tərəfindən sivilizasiyalararası dialoqun təşviqinə töhfə verən mühüm təşəbbüsdür".

**Van İ,**
**Çinin xarici işlər naziri.**



"Putin Sovet İttifaqının hakimiyyətini bərpa etmək istəyir. Bu mümkün deyil, amma mən əmin deyiləm ki, bunu ona izah edə biləcək insanlar var. O bunu edəcək. Əminəm ki, məqsədinə çatmaq üçün o, ilk növbədə Ukrayna vasitəsilə buna nail olmaq istəyir".

**Volodimer Zelenski,**
**Ukraynanın prezidenti .**



"Bu yaxınlarda Avropa Rusiyaya açıq-aydın bir siqnal göndərib: biz daha enerjidən bizim əleyhimizə silah qismində istifadə olunmasına yol verən deyilik. Biz daha üzv dövlətlərimizə hədə-qorxu gəlinməsinə imkan verməyəcəyik.

Biz artıq dolayı yolla Kremlin hərbi büdcəsini doldurmayacağıq. Rusiya enerjisindən 100 faiz müstəqillik əldə etməliyik. Bunu isə qaz idxalından imtina etməklə həyata keçirməyi planlaşdırırıq. Artıq bu ilin sonuna qədər biz spot (dərhal ödənilmə) bazarda qaz alışını qadağan etməyi nəzərdə tuturuq".

**Dan Yorgensen,**
**Avropa İttifaqının enerji məsələləri üzrə komissarı.**

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: BƏLƏDİYYƏ MERİNİN BİRİNCİ MÜAVİNİ 5 SAYLI İCTİMAİ MƏKTƏBİN YUBİLEYİNDƏ İŞTİRAK EDİB



***Marneuli Bələdiyyəsi merinin birinci müavini Roin Dekanoidze Marneuli şəhərinin 5 saylı ictimai məktəbinin 60 illik yubileyinə həsr olunmuş tədbirdə iştirak edib.***

Tədbirdə çıxış edən Roin Dekanoidze yubiley münasibətilə məktəbin kollektivini təbrik edərək, təhsilin inkişafında məktəb rəhbərliyinin və müəllimlərin mühüm rolunu xüsusi vurğulayıb.

Marneuli Bələdiyyəsi adından məktəbin heyətinə təşəkkürnamə təqdim edilib.

Məktəbin əməkdar müəllimləri isə fəxri fərmanlarla təltif olunublar.

Tədbirdə yerli özünüidarəetmənin və Təhsil Resurs Mərkəzinin nümayəndələri də iştirak ediblər.

### Dmanisi: "QOMARETOBA" QEYD EDİLİB



***Dmanisi Bələdiyyəsinin meri Koba Muradaşvili, Sakrebulonun sədri Paata Kuliaşvili, Bolnisi, Dmanisi, Tetritskaro və Tsalkanın Parlamentdəki nümayəndəsi Davit Şerazadaşvili Qomareti kəndinin sakinlərini xalq bayramı "Qomaretoba" münasibətilə təbrik ediblər.***

Ənənəvi bayramı qeyd etmək üçün Qomareti Mədəniyyət Evində müxtəlif tədbirlər, o cümlədən konsert və idman tədbirləri keçirilib. "Qomaretinin Fəxri sakinləri" müəyyənləşdirilib və onlara meriya adından rəmzi mükafatlar təqdim edilib.

Kənddə xalq bayramı Dmanisi və Aqar-Taşirinin protosingelosu Dionise Qvimradzenin təşəbbüsü ilə 2017-ci ildə bərpa edilib.

Tədbirdə Kvemo Kartli üzrə dövlət müvəkkilinin müavini Qiqa Namiçeişvili, Dmanisi və Aqar-Taşiri arxiyepiskopu Zenon İarajuli, Protosingelos Dionise Qvimradze və yerli hökumətin nümayəndələri iştirak ediblər.

### Saqareco: MER APARILAN YOL ASFALTLAMA İŞLƏRİNƏ BAŞ ÇƏKİB



***Saqareco bələdiyyəsinin meri Avtandil Qulikaşvili bələdiyyə sədrinin birinci müavini və İnfrastruktur xidmətinin rəhbəri ilə birlikdə Ucarma kəndində rayondaxili avtomobil yolunun asfaltlanması işləri ilə tanış olub.***

Mer yerli əhali ilə görüşüb, həyata keçirilməsi nəzərdə tutulan infrastruktur layihələrindən danışıb, onların fikirlərini dinləyib.

Ucarma kəndində kilsənin yaxınlığında yolun bərpası işləri fəal şəkildə aparılır.

Layihənin dəyəri 609 999 laridir. İşlər Regional Layihələr Fondu və yerli büdcə hesabına maliyyələşdirilir.

### Telavi: MƏKTƏBDƏ TEATR TAMAŞASI NÜMAYİŞ OLUNUB



***Telavi şəhərinin 4 saylı ictimai məktəbində teatr tamaşası nümayiş etdirilib.***

Telavi Bələdiyyəsinin meri Levan Andriaşvili, Kaxeti regionu üzrə dövlət müvəkkilinin müavini Platon Kalmaxelidze, Dedoplitskaro Bələdiyyəsinin meri Nikoloz Caniaşvili, Telavi Bələdiyyə Şurasının sədri Tengiz Mtvareli̇şvili və yerli hakimiyyət nümayəndələri Telavi şəhərinin 4 saylı ictimai məktəbində nümayiş etdirilən tamaşada iştirak ediblər.

Nana Kevlişvilinin ssenarisi, Yekaterine Qiqitelaşvilinin quruluşunda "Əbədiyyətə pəncərə" tamaşasında məktəb şagirdləri Niko Pirosmaninin qəhrəmanlarını canlandırıblar.

## BEYNƏLXALQ HƏYAT

### İRANIN KƏŞFİYYAT NAZİRİ: İSRAİLİN NÜVƏ PROQRAMINA DAİR SƏNƏDLƏRİ TEZLİKLƏ AÇIQLAYACAĞIQ



***"İran kəşfiyyatı tərəfindən İsrailin nüvə proqramı ilə bağlı əldə edilmiş sənədlər tezliklə dərc olunacaq".***

"Tasnimnews"ə istinadən xəbər verir ki, bu barədə İranın kəşfiyyat naziri İsmayıl Xatibi bildirib.

İranlı nazirin sözlərinə görə, söhbət minlərlə sənəddən gedir ki, onlar İsrailin müdafiə imkanları, nüvə obyektləri və ABŞ və Avropa ilə münasibətlərinə aiddir.

*"Bunların ötürülməsi vaxt tələb edir və güclü təhlükəsizlik tədbirləri tələb olunur. Ötürülmə metodları gizli qalacaq, lakin sənədlər yaxın zamanda dərc edilməlidir"* – deyə İsmayıl Xatibi qeyd edib.

Xatırladaq ki, İran İsrailə aid sənədlərin əldə olunması ilə bağlı məlumatı bir neçə gün əvvəl yaymışdı.

İsrail hələlik yayılan məlumatla bağlı heç bir şərh verməyib.

### DONALD TRAMP İLON MASKA SƏRT XƏBƏRDARLIQ EDİB



***ABŞ Prezidenti Donald Tramp bildirib ki, onun milyarder İlon Maskla dostluq münasibətlərini bərpa etmək fikri yoxdur.***

Dövlət başçısı bu barədə "NBC News"a telefonla müsahibəsində danışıb.

Trampın sözlərinə görə, onun prezident administrasiyasına hörmətsizlik göstərən Maskla danışmaq üçün vaxtı yoxdur.

Dövlət başçısı Maska sərt xəbərdarlıq edib və bildirib ki, əgər iş adamı Respublikaçıların büdcə təklifinə qarşı çıxan Demokrat namizədləri maliyyələşdirməyə qərar verərsə, bunun ciddi nəticələri olacaq.

Qeyd edək ki, Mask ABŞ administrasiyasındakı postunu tərk etdikdən sonra Trampla açıq şəkildə mübahisə edib.

### PENTAQON LOS-ANCELESƏ 700 DƏNİZ PİYADASI YERİDİR



***ABŞ Müdafiə Nazirliyi etirazlar və iğtişaşlar səbəbindən Kaliforniya ştatının Los-Anceles şəhərinə dəniz piyadaları korpusunun təxminən 700 hərbçisini göndərəcək.***

Bu barədə ABŞ Şimal Komandanlığının yaydığı bəyanatda deyilir.

Əmrə əsasən, dəniz piyadaları federal xidmət və departament əməkdaşlarının, həmçinin Los-Ancelesdə və onun ətraflarında dövlət əmlakının təhlükəsizliyinin təmin edilməsinə yardım edəcək.

Onlar Kaliforniya Milli Qvardiyası ilə qarşılıqlı əlaqədə olacaqlar.

Qeyd edək ki, Los-Ancelesdəki qanunsuz mühacirlərə qarşı polis basqınlarından sonra iğtişaşlar baş verib.

### QAZAXISTAN PREZİDENTİ YENİ MÜDAFİƏ NAZİRİNƏ DÖYÜŞ HAZIRLIĞINI GÜCLƏNDİRMƏYİ TAPŞIRIB



***Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yeni təyin etdiyi müdafiə naziri Dauren Kosanovu qəbul edib.***

Bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb.

Məlumatda deyilir: *"Görüş zamanı dövlət başçısı ordunun döyüş hazırlığının gücləndirilməsi, idarəetmə sisteminə rəqəmsal həllərin tətbiqi, Xüsusi Əməliyyat Qüvvələrinin imkanlarının genişləndirilməsi, sosial və ideoloji işin səmərəliliyinin artırılması, həmçinin hərbi infrastrukturun modernləşdirilməsi ilə bağlı bir sıra konkret tapşırıqlar verib".*

Daha əvvəl Tokayev 2022-ci ildən bu vəzifəni tutan müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovu vəzifəsindən azad etmək haqqında fərman imzalayıb. Müdafiə Nazirliyinin yeni rəhbəri Jaksılıkovun müavini – Qazaxıstanın Hava Hücumundan Müdafiə Qüvvələrinin baş komandanı aviasiya general-leytenantı Kosanov təyin edilib.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏDİS** *is. [ər.] din.* Məhəmməd peyğəmbərin qanun hökmündə olan sözlərinə verilən ad. *Başında ağ araqçın olan, gümüş toqqalı, qırmızısaqqal bir kişi isə təkər səslərinə, tıqqıltıya baxmadan adamlara hədis danışırdı.*

Mir Cəlal.

**HƏDSİZ-HÜDUDSUZ** *sif.* Həddi-hüdudu olmayan, ucsuz-bucaqsız, nəhayətsiz, sonsuz. *Hədsiz-hüdudsuz çöllər.*

**HƏDYAN** *is. [ər.]* Tərbiyəsiz, ədəbsiz, hərzə, əsassız sözlər; söyüş.

*Keçən sözü çəkmə üzə, amandı,*
*Hədyan danışmışam, laf eyləmişəm.*

Aşıq Ələsgər.

**HƏFRİYYAT** *is. [ər.] köhn.* Arxeoloji qazıntılar; qazıntı işləri.

**HƏKƏM** *is. [ər.] köhn.* İki tərəf arasında olan mübahisəni həll etmək üçün seçilən adam; münsif, jüri.

*Camaat sakit durub tamaşa edirdi. Yalnız bir ağsaqqal qaydaya baxırdı. Bu, həkəm imiş.*

Çəmənzəminli.

**HƏKİMANƏ** *sif. və zərf [ər.* həkim və *fars.* ...anə] 1. Hikmətli, ağıllı, müdrik(anə), fazilanə, dərin. *Həkimanə söz.*

*Nitqdəndir bəlalər insanə;*
*Nitq elə hər sözü həkimanə.*

S. Ə. Şirvani.

2. *köhn.* Həkimə (alimə, filosofa) yaraşan bir tərzdə; alimcəsinə, filosofcasına, alim kimi, filosof kimi, ağıllı. *Həkimanə bir əda ilə danışmaq. Həkimanə hərəkət etmək.*

*Sərxoşluq ilə ömrünü sərf eyləmə, Vahid!*
*Arif ona derlər ki, həkimanə dolansın.*

Ə. Vahid.

**HƏKİMBAŞI** *is. köhn.* Baş həkim, həkimlərin başçısı.

*Günün birində həkimbaşı küçədə çıxır mollanın qabağına.*

"M. N. lətif."

**HƏKİMXANA** *is. [ər.* həkim və *fars.* ...xanə] Tibb məntəqəsi, xəstəxana, poliklinika.

[Rüstəm:] *Deyərsən bəlkə* [sədr] *subaydır, yox, arvadı oxumuş müəllimə, bacıları həkimxanada işləyirlər.*

M.İbrahimov

**HƏKKAK** *is. [ər.]* Metal, daş və s. üzərində polad qələmlə yazı, şəkil və s. nəqşlər oyan sənətkar; qravüra ustası, qravüraçı, oymaçı.

**HƏKKAKLIQ** *is.* Həkkakın sənəti; qravüraçılıq, oymaçılıq.

**HƏQARƏT** *[ər.]* 1. *is.* Hörmətsizlik, saygısızlıq, alçaqlıq, təhqir; alçaldıcı, heysiyyətə, mənliyə toxunan hərəkət, söz və s.

*Xan buyuran qulluqlarda qaim ol,*
*Gör düşmənə nə həqarət eylərsən.*

M. V. Vidadi.

2. **Həqarətlə** şəklində *zərf* – alçaq nəzərlə, yuxarıdan-aşağı, saymazyana, nifrətlə.

*Nə baxmaqdır mənə, ay müddəi, çeşmihəqarətlə?*

S. Ə. Şirvani.

**HƏQİQƏT** *is. [ər.]* 1. Doğrudan, həqiqətən olmuş və ya olan şey, hadisə və s. *Həqiqət bələdir. Həqiqəti olduğu kimi danışmaq. Həqiqət acı da olsa, demək lazımdır. Bunların heç biri həqiqətə oxşamır.*

*Siz bunu sanmayın həqiqətdir,*
*Damağım gəldi, bir zərafətdir!*

M. Ə. Sabir.

// Bir şeyin əsli, mahiyyəti, künhü.

//Düzlük, vicdan, yaxşılıq, xeyirxahlıq, ədalət.

*Həqiqət aramaq. ..Həqiqət axtarılan yerdə də mütləq ixtilaf olur.*

C. Məmmədquluzadə.

2. Həyatda, təcrübədə sınanmış fikir, mülahizə, mühakimə. *Hamıya məlum bir həqiqət. Bu, sınaqdan keçmiş həqiqətdir.*

3. Doğrudan da, həqiqətən. *Bu yerlər həqiqət gözəldir.*

*Bədircahan həqiqət doğru deyir ki, onun ürəyi yanmır.*

N. Vəzirov.

**HƏQİQƏTƏN** *zərf [ər.]* Doğrudan, doğrudan da, gerçəkdən, əslində.

*O həqiqətən böyük alimdir. Həqiqətən gözəl oxuyur. ..Həqiqətən baxmağına dəyər.*

*Bu müddət içərisində Əfruz bacı həqiqətən bir çox şeylər öyrənmişdi.*

S. Rəhimov.

**HƏQİQƏTPƏRƏST** *is. [ər.* həqiqət və *fars.* ...pərəst] Həqiqəti, düzlüyü, ədaləti sevən, istəyən və onun uğrunda mübarizə edən adam; həqiqətçi.

**HƏQİQİ** *sif. [ər.]* 1. Həqiqətən mövcud olan və ya olmuş, həqiqətə uyğun olan; gerçək, real. *Həqiqi vəziyyət.*

*Məsafə və zaman göz işləməyən bir zülmət içində sanki öz həqiqi ölçüsünü itirmişdi.*

Ə. Məmmədxanlı.

// Saxta, süni, yapma, yalançı olmayan; əsil. *Həqiqi simasını göstərmək.*

[Nadir bəy:] *Dərin bir eşq, həqiqi bir məhəbbət daima dilsizdir.*

H. Cavid.

[Usta] *ilk dəfə olaraq həqiqi eşqin nə olduğunu duydu.*

Çəmənzəminli.

// Düz, doğru, səhih. *Həqiqi söz*

*Həqiqi yol ilə, getdiyim yerdə,*
*Kəsib qabağımı sən, dayan, dedin.*

Aşıq Hüseyn.

2. Əsil mənada, necə lazımsa elə, əsil. *Həqiqi dost. Həqiqi sənətkar.*

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### ფსიქოლოგიური ჯანმრთელობა (Psikoloqiuri canmrteloba)
### Psixoloji sağlamlıq

**ფსიქოლოგიური ჯანმრთელობა – ჩვენი უხილავი ძალა (**Psikoloqiuri canmrteloba – çveni uxilavi dzala.**) – Psixoloji sağlamlıq görünməyən gücümüzdür.**

**ყველას აქვს ემოციები მაგრამ არა ყველას შეუძლია მათზე საუბარი. (**Ğvelas akvs emotsiebi maqram ara ğvelas şeudzlia matze saubari.**) – Hər kəsin hissləri var, amma hər kəs o haqda danışa bilmir.**

**ყოველდღიური სტრესი, ზეწოლა და მოლოდინები ცვლის ჩვენს განწყობას (**Ğoveldğiuri stresi, zetsola da molodinebi tsvlis çvens qantsğobas.**) – Gündəlik stress, təzyiqlər və gözləntilər əhvalımızı dəyişdirir.**

**ფსიქიკური ჯანმრთელობა ისეთივე მნიშვნელოვანია, როგორიც ფიზიკური (**Psikikuri canmrteloba isetive mnişvnelovania, roqorits pizikuri.**) – Psixoloji sağlamlıq da fiziki sağlamlıq qədər vacibdir.**

**დახმარების თხოვნა სისუსტე კი არაა ეს სიმამაცეა. (**Daxmarebis txovna sisuste ki araa es simamatsea.**) – Kömək istəmək zəiflik deyil, bu cəsarətdir.**

**გონებრივი სიმშვიდე წარმატების ფესვია. (**Qonebrivi simşvide tsarmatebis pesvia.**)– Zehni sakitlik uğurun təməlidir.**

**ხშირად ვიღიმებით, როცა შიგნით გვტკივა. (**Xşirad viğimebit, rotsa şiqnit qvtkiva.**) – Bəzən gülümsəyirik, halbuki içimiz ağrıyır.**

**გულწრფელი საუბარი და მხარდაჭერა საუკეთესო წამალია. (**Qultsrpeli saubari da mxardatçera sauketeso tsamalia.**) – Səmimi söhbət və dəstək ən yaxşı müalicədir.**

**ფსიქოლოგიური მხარდაჭერა საჭიროა როგორც ბავშვებისთვის, ისე უფროსებისთვის. (**Psikoloqiuri mxardatçera satçiroa roqorts bavşvebistvis, ise uprosebistvis.**) – Psixoloji dəstək həm uşaqlar, həm də böyüklər üçün vacibdir.**

**ფსიქოლოგიურ ჯანმრთელობაზე ზრუნვა სირცხვილი კი არა სიძლიერეა. (**Psikoloqiur canmrtelobaze zrunva sirtsxvili ki ara sidzlierea.**) – Psixoloji sağlamlığına qayğı göstərmək zəiflik deyil – gücdür.**

**ვისაც შეუძლია მოუსმინოს სხვას, უკვე სამყაროს ცვლის. (**Visats şeudzlia mousminos sxvas, ukve samğaros tsvlis.**) – Dinləməyi bacaran insan artıq dünyanı dəyişir.**

**მოუსმინეთ ერთმანეთს ზოგჯერ უბრალოდ სიჩუმეც საკმარისია. (**Mousminet ertmanets zoqcer ubralod siçumets sakmarisia.**) – Bir-birinizə qulaq asın, bəzən sadəcə səssizlik də kifayətdir.**

**სულიერი ბალანსი ჯანმრთელობის ნაწილია. (**Sulieri balansi canmrtelobis natsilia.**) – Ruhi tarazlıq sağlamlığın bir hissəsidir.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

9 iyun 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

### Böyük Merab Berdzenişvilinin ölümsüzlüyü (qısaldılmış)

Böyük müasir sənətkar, gürcü Mikelancelo kimi tanınan Merab Berdzenişvilinin vəfatından doqquz il keçib. O, dünya şöhrətli gürcü heykəltəraş, rəssam və qrafikaçı, Gürcüstan Milli Elmlər Akademiyasının müxbir - üzvü idi.

Cənab Merab Tbilisi Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olub. O, bir çox gürcü sənətkar nəsillərini yetişdirib.

Cənab Merab çoxsaylı uşaq kitablarını, o cümlədən "Nar qızı" kimi gürcü xalq nağıllarını illüstrasiya edib.

Cənab Merab "Müasir dünyada heykəltəraşlığın mahiyyəti" adlı Tbilisi Beynəlxalq Heykəltəraşlıq Simpoziumunun təşkilatçısı olub.

Təsviri sənətə verdiyi böyük töhfəyə görə cənab Merab Gürcüstanın və Rusiyanın xalq rəssamı fəxri adına layiq görülüb. O, Rusiya Rəssamlıq Akademiyasının müxbir - üzvü və Gürcüstan Mədəniyyət Fondunun prezidenti olub. 1983-cü ildə Tbilisinin fəxri vətəndaşı adına layiq görülüb.

Merab Berdzenişvili monumental, qrafika, təsviri əsərləri ilə incəsənət tarixndə özünəməxsus imza yaradıb. O, Qurucu Davitin və Davit Quramişvilinin heykəllərini yaradıb. Tbilisi Filarmoniyası qarşısındakı "Muza" heykəli də ona məxsusdur. Uşaq parkında Nodar Dumbadzenin memorialını, yazıçının heykəlini və "Mən, nənəm, İliko və İlarion" romanının personajlarının heykəllərini yaradıb.

**Tamaz Şilakadze**
**Gürcüstan Mədəniyyət Fondunun sədri, akademik.**

6–12 iyun 2025-ci il "VEÇERNİY TBİLİSİ"

### Gürcüstana səfərdən qabaq qərbli turistləri nə ilə qorxudurlar?

Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Fransa və Polşa səfirliklərinin Gürcüstana səfərin mümkün riskləri ilə bağlı bəyanatını "Gürcüstan iqtisadiyyatına hücum" adlandırıb. Bu haqda o, öz "Facebook" səhifəsində yazıb.

*"Çox narahatedicidir ki, Gürcüstan siyasətinə qarşı uğursuz hücumlardan sonra biz indi iqtisadiyyatımıza qarşı hücumların şahidi oluruq. Turizm xalqımızın rifahına töhfə verən ən vacib sektorlardan biridir, ona görə də ona zərbə endirmək cəhdləri Gürcüstanın milli maraqlarına hücumdur"*, - deyə Şalva Papuaşvili vurğulayıb.

Onun sözlərinə görə, xarici diplomatlar tərəfindən yayılan sərhəddə girişin kütləvi qadağası ilə bağlı iddialar reallıqla uyğunlaşmır. Parlamentin sədri imtina və deportasiyaların müqayisəli statistikasını təqdim edib: 2024-2025-ci illərdə Gürcüstan yalnız doqquz Polşa vətəndaşına, Polşa isə 1250 Gürcüstan vətəndaşına ölkəyə giriş icazəsi verməyib; Gürcüstan 16 Fransa vətəndaşının ölkəyə girişinə icazə verməyib, Fransa isə 145 Gürcüstan vətəndaşının ölkəyə giriş haqda müraciətini rədd edib; Gürcüstan 84 Aİ vətəndaşına ölkəyə qirişi qadağan edib; Aİ ölkələri isə 4825 Gürcüstan vətəndaşının ölkələrə girişinə icazə verməyib.

Bundan əlavə, həmin dövrdə Polşa 249, Fransa 280, Aİ bütövlükdə isə 2463 Gürcüstan vətəndaşını deportasiya edib.

Xatırladaq ki, bu yaxınlarda Fransa və Polşa səfirlikləri öz vətəndaşlarına əcnəbilərin Gürcüstana buraxılmaması hallarının artması ilə bağlı xəbərdarlıq ediblər.

11 iyun 2025-ci il "KVİRİS PALİTRA"

### Həyəcanlı proqnoz: "Rusiya 5 ildən sonra NATO-ya hücum edəcək". - The Guardian nəşri

NATO baş katibinin sözlərinə görə, Rusiya beş ildən sonra NATO-ya hücum etməyə hazır olacaq, ona görə də bu aydan etibarən alyans liderləri Kremldən gələn təhdidlərin və təxribatların qarşısını almaq üçün hərbi xərcləri ölkənin ümumi daxili məhsulunun (ÜDM) 5 faizinə qədər artırmalıdır.

Londonda çıxış edən Mark Rutte deyib ki, NATO-nun "kollektiv müdafiədə keyfiyyət sıçrayışına" ehtiyacı var ki, bu da getdikcə hərbiləşən Rusiyanın qarşısını almaq üçün tam silahlanma deməkdir. Tam yenidən silahlanma hava hücumundan müdafiə vasitələrinin beş dəfə artırılmasını, əlavə min tankın və milyonlarla artilleriya mərmisinin istehsalını əhatə edəcək - bütün bunlar NATO ölkələrinin Rusiyanın sənaye imkanlarına çatması üçündür. *"Rusiya-Ukrayna müharibəsi bitəndə belə təhlükə aradan qalxmayacaq"*, -deyə bəyan edən Mark Rutte, Kremlin Ukrayna ilə atəşkəs və sülhə razılaşsa belə, hərbiləşdirməni davam etdirəcəyini vurğulayıb.

Alyansın baş katibinin belə bir bəyanatı Moskvanın dərhal reaksiyasına səbəb olub: Kremlin sözçüsü Dmitri Peskov bildirib ki, *"NATO öz planları ilə öz mahiyyətini nümayiş etdirir – təcavüz və qarşıdurma vasitəsi kimi"*.

11 iyun 2025-ci il "REZONANS"

### Miqrasiya siyasətinin sərtləşdirilməsi Gürcüstanın milli maraqlarına uyğundur - "Gürcü" cəmiyyəti

"Gürcü" cəmiyyəti Gürcüstanın Cinayət Məcəlləsinə "Əcnəbinin Gürcüstandan çıxarılması və müəyyən müddət ərzində Gürcüstana girişinin qadağan edilməsi" maddəsinin əlavə edilməsi ilə bağlı hökumətin növbəti təşəbbüsünü alqışlayır. "Bu addım Gürcüstanın milli maraqlarına uyğundur",- deyə "Gürcü" cəmiyyətinin yaydığı bəyanatda qeyd edilir.

"Gürcü" cəmiyyətinin qeyd etdiyinə görə, nəzarətsiz miqrasiya qlobal problemdir. "Bir çox Avropa İttifaqı ölkələri və bütün keçmiş Sovet İttifaqı ölkələri kimi Gürcüstan da gənclərin ölkədən getməsindən narahatdır. Bundan əlavə, yerli əhalinin durğunluğu fonunda immiqrantların sayında artım olması da təhlükəlidir. Gürcüstanın bir sıra ölkələrdən gələn mühacirlər üçün Avropaya tranzit körpü-sünə çevrildiyi şəraitdə bu, təbiidir. 2012-ci ildən ölkədən gedənlərdən 272 min çox əcnəbi ölkəyə daxil olub və qeyri-rəsmi məlumatlara görə, hazırda Gürcüstanda 25 minə yaxın qeyri-qanuni miqrant var", - deyə məlumatda bildirilir.

Bundan əlavə, "Gürcü" cəmiyyətində hesab edirlər ki, hazırkı miqrasiya balansı mötədillik çərçivəsindədir, lakin hökumətin təşəbbüsü preventiv xarakter daşıması və gələcək üçün nəzərdə tutulması ilə maraqlıdır.

"Bu problem geniş miqyaslıdır, çünki miqrasiya nəzarəti təkcə saylarda deyil, həm də ölkənin mədəni, iqtisadi və geosiyasi təhlükəsizliyində öz əksini tapır. Qanunvericilik təşəbbüsü Gürcüstan dövlətinə miqrasiya prosesinə nəzarət etməyə imkan verəcək, ölkənin maraqlarının və suverenliyinin pozulmasının qarşısını alacaq...", - deyə bəyanatda bildirilir.

## QƏZETİMİZİN XRONİKASI

**Diplomatiya**

- İtaliyanın Milan şəhərində Gürcüstanın baş konsulluğu açılıb.
- Xatia Tsilosani Gürcüstanın Aİ-dəki daimi nümayəndəsi olacaq.
- Tamar Taliaşvili Gürcüstanın ABŞ-dakı səfiri olacaq - Onu Strasburqdan Vaşinqtona köçürürlər.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidze ikigünlük səfərlə Macarıstana gedib.
- İtaliyanın Lombardiya regionunun vitse-prezidenti Marko Alparone: Gürcüstanın bir çox məktəblərində italyan dili tədris olunur. Ölkəmizin bir çox məktəblərində gürcü dili də tədris olunur.
- Gürcüstanın Ətraf Mühit və Kənd Təsərrüfatı naziri David Sonqulaşvili BMT-nin Fransa Respublikasının Nitsa şəhərində keçirilən konfransında iştirak edib.

**Beynəlxalq münasibət**

- Çinin lideri Si Tsinpin Qazaxıstana səfər edəcək.
- Azərbaycan Özbəkistanda yeni ticarət ofisi açır.
- ABŞ və Çin Cenevrə razılaşmalarının icrası ilə bağlı konsensus əldə ediblər.
- Qazaxıstan və Bolqarıstan Orta Dəhlizin inkişafına dair memorandum imzalayıblar.
- Tramp Netanyahunu İrana zərbə endirməməyə çağırıb.
- Tramp: Milli Qvardiya Los-Ancelesdə təhlükəsiz olana qədər qalacaq.
- Los-Ancelesin mərkəzində komendant saatı elan edilib.

**İqtisadiyyat**

- Gürcüstan və Taylandı Tayland aviaşirkəti "Thai AirAsia X"-in birbaşa reysləri birləşdirə bilər.
- Tbilisi Beynəlxalq Hava Limanında qadın rəssamların əsərlərindən ibarət sərgi və satış keçiriləcək.
- Seulda keçirilən xüsusi qəbulda Gürcüstanın turizm potensialı təqdim edilib.
- Dünya Bankının proqnozuna görə, Gürcüstan iqtisadiyyatı 2025-ci ildə 5,5%, 2026-cı ildə isə 5% artacaq.

**Mədəniyyət**

- Paliaşvili adına Dövlət Opera və Balet Teatrının səhnəsində iyunun 24-dən iyulun 6-dək Tbilisi Balet Festivalı keçiriləcək.
- Gürcüstan Mədəniyyət Nazirliyi dünyanın müxtəlif ölkələrindən aparıcı ifaçıları bir araya gətirəcək Tbilisi Opera Festivalını təsis edib
- Mtsxeta Mədəniyyət Mərkəzində tamaşaçılar Kosmik Teatr və Mtsxeta Teatrının birgə səhnələşdirdiyi "Balaca şahzadə" tamaşasına baxıblar.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli 23 may tarixli sayımızda)*

### Alça



Latınca "Prúnus cerasífera" adlanan alça gülçiçəyikimilər fəsiləsinə aid bitkidir. Rus və alman linqvist Maks Fasmerin nəzərinə görə, meyvənin adı, "alça" Azərbaycan mənşəlidir və "kiçik gavalı" və ya "bağ gavalısının gözəl növü" deməkdir. Ağac mart ayında çiçək açır. Çiçəkləri ikicinslidir, ağ və çəhrayi rəngli olur. Sözügedən bitki ənənəvi olaraq Qafqazdan Orta Asiyaya qədər geniş coğrafiyada becərilir. Alçanın birçox növü var. 1955-ci ildə Sovet botaniki və aqronomu Nikolay Kovalyov "Cerasiferae" qrupuna aid alçanın bu növlərini qeyd edib: "Prunus cerasifera Ehrh" alça, "Prunus caspica Kovalev & Ekimov" Xəzər alçası, "Prunus iranica Kovalev" İran alçası, "Prunus ursina Kotschy" Suriyə alçası və "Prunus sogdiana Vassilcz" Fərqanə alçası.

***Bu əsrarəngiz turşməzə meyvə sadəcə ləzzətli qida yox, eləcə də insan organizmi üçün faydalı xüsusiyyətlərə malik məhsuldur.*** Alçada kalori miqdarı olduqca azdır – 100 qram məhsul 27 kilokalori təşkil edir. Yetişmiş meyvənin tərkibində 4 – 5 faiz şəkər var. Alçanın tərkibində yüksək miqdarda C, A, E və B vitaminləri var. Güclü antioksidant olan C vitamini immunitet sistemini gücləndirməyə və orqanizmi müxtəlif xəstəliklərdən qorumağa kömək edir. Əlavə etmək lazımdır ki, 100 qram alçada, meyvənin növündən asılı olaraq, insan orqanizminə lazım C vitamininin 10 – 20 faizi daxildir. Alça vitaminlərlə yanaşı, kalium, maqnezium, fosfor və dəmir kimi minerallarla da zəngindir. Alça mədə-bağırsaq traktının işini stimullaşdırır, yeməklərin daha asan həzm edilməsinə və ağır yeməklərdən sonra yüngülləşməyə kömək edir. Alça immunitet sistemini gücləndirir, xəstəliklərə qarşı organizmin müqavimətini artırır; qanda hemoqlobinin miqdarını çoxaldır; vitamin çatışmazlığı ilə mübarizə aparmağa kömək edir; sinir sisteminin vəziyyətini normallaşdırır. Yuxunu tənzimləyir, stressdən çıxardır; iştahı artırır; soyuqdəymə zamanı öskürəyin öhdəsindən gəlməyə kömək edir; qan damarlarının divarlarını gücləndirir; qan təzyiqini aşağı salır; yaşlanma prosesini ləngidir, dərinin vəziyyətinə müsbət təsir göstərir və s.

***Amma unudmayaq ki, alçanın insan organizmi üçün zərərləri də var.*** Alçanın nəzarətsiz istehlakı nəticəsində yarana biləcək problemlər bunlardır: ishal; mədə yanqısı; mədədə turşuluğun artması. Eləcə də meyvə tərkibindəki komponentlərə fərdi dözümsüzlüyü də nəzərə almaq lazımdır - allergiya.

XATİRƏ

# KÖKLƏRDƏN GƏLƏN SƏS



Bir insan doğulur… və bəzən təkcə bir ömür deyil, bir nəslin başlanğıcı olur. Bəzən elə bir iz buraxır ki, zaman keçsə də silinmir, elin, nəvələrin, nəticələrin dilində, yaddaşında yaşayır. Belə adamlardan biri də bizim üçün – Hasan babam (biz ona dədə deyə səslənərdik) idi.

O, 1938-ci ilin yanvar ayının 10-da dünyaya göz açmışdı. Hüseynqulu kişinin 8 övladından biri olaraq dünyaya gəlmiş, anası Xədicə xanımın gözünün nuru olmuşdu. Həyat hekayəsi təkcə bir insanın deyil, bir nəsil ağacının köklənməsi idi. Hüseynqulu baba uzaqlardan - İranın Kələküt kəndindən gəlib Gürcüstan torpağında iz salmışdı. Qismət elə gətirmişdi ki, nökərlik etdiyi evin qızı Xədicə xanım ilə ailə qurmuşdur. Və beləcə bizim nəsil - Fətullayevlər ailəsi yaranmışdı.

Əvvəllər soyadımız Mirzəyev olsa da, Hüseynqulu baba atasının adını yaşatmaq üçün Fətulla adından Fətullayev soyadını götürmüşdü. Bu da ailənin kökünə olan sevginin, yaddaşda qalma istəyinin başqa bir ifadəsi idi.

Hasan babam gəncliyində Rusiyanın Omsk şəhərində hərbi xidmətdə olub. Lakin bir gün atasından məktub gəlir: "Evlənmək vaxtındır, vətənə qayıt." Babam da atasının sözünü yerə salmayıb vətənə dönür və həyatını Güldərən nənəmlə birləşdirir. Bu izdivacdan altı övlad dünyaya gəlir: Sevinc, Sevil, Mariya, Maya, İntizar və Bejan.

Əvvəllər bir oğlu da dünyaya gəlmiş, amma uzun yaşamamışdı. Bu ağır itkini illərlə içinə gömən Hasan baba, deyərdi ki, "Yuxumda oğul müjdəsi aldım, adını İntizar qoyarsan dedilər…" İntizardan sonra doğulan Bejan isə ailənin son beşiyi, son ocağıdır.

Dədəm 6 övladın atası, 12 nəvənin, 13 nəticənin sevinci idi. Amma onun ən böyük mirası nə ad-san, nə də mal-mülk oldu. Onun mirası yaddaşımızda yaşayan sözlər və ürəklərimizdə kök salmış izlərdir. Uşaqlıqda bizə soy-kökümüzdən, zəhmətdən, mərhəmətdən danışardı. Atasının at belində işləməyə getdiyini, anasının xoş xasiyyətini kövrələrək xatırlayardı.

2024-cü ilin 19 iyununda haqqa qovuşan dədəm arxasında yalnız gözəl xatirələr deyil, həm də yadigar sözlər, iki balaca şeir qoyub. Bu şeirlər onun vətən sevgisinin, torpaq həsrətinin, yaşanmış duyğularının əksidir.

### QARDABANİ – CƏNNƏT BAĞIM

Qardabani - cənnət bağı, qoynun güldü, çiçəkdi,
Hər otağın eyvanında körpələr dincələcəkdir.
Bir yanın Candar gölü, tarlalar, sonasısan,
Bir yanı Qazax rayonu, marallar yuvasısan...

Bu şeir onun doğma yurda, Qardabaniyə bəslədiyi saf, təmiz və vəfalı sevgisinin ifadəsidir. Onun torpağa baxışı, o torpaqda gördüyü gözəlliklər bir insanın yalnız canla bağlı olduğu yeri bu cür təsvir edə bilməsi ilə izah oluna bilər.

### VƏTƏNİN HƏSRƏTİ

Buludlara baxdım, bir də ah çəkdim,
Görəsən dərdimi qandı, qanmadı?
Vətənin həsrəti mənə dağ çəkdi,
Görəsən dərdimi sandı, sanmadı?

Uzaqdan baxıram, vətən görünür,
Ürəyim elimlə bir tən görünür,
Yağlıca döşündən baxanda gözə
Qoyunlu-quzulu çəmən görünür…

İndi son baxışla göylərə boylan,
Yorğun bir nəfəsdə çəkilir zaman.
Bu can da gün gələr torpağa qonar,
Yurd həsrətim qalar yuxuda tamam...

Bu şeir dədəmin vətəndən uzaqda keçən illərinin səssiz etirafıdır. Baxışları göylərə dikilmiş, dərdini buludlara deyən bir adamın içindəki tənhalıq, xiffət və məhəbbət sözlərdə kök atıb. Bu sadə misralar onun sözlə yaşatdığı həsrəti idi.

Dədəm ruhunun dərinliyində həssas bir qələm daşıyırdı. Bizə tez-tez şeirlərini deyər, biz yazmaq istədikdə isə, "mənə sizin əzbərinizdə qalmağı yetərlidir" deyərdi. Onun misraları kağız üzərində deyil, bizim yaddaşımızda yaşayır. Və bizə miras qalan bu sözlər, hər dəfə oxunduqca onu bizə xoş xatirələrlə xatırladır.

Allah sənə rəhmət eləsin, dədə! Sözün yaşadıqca, sən də bizimlə olacaqsan…

*Ruhuna ehtiramla: nəvən* **Aytən Fətullayeva**

# BÖLGƏNİN İLK FERMER QADINI



Fermer deyərkən ağlımıza ilk gələn kişi cinsindən şəxslər olur- Altında maşın, başında papaq, ayağında rezin çəkmə və s. Lakin fermerliyi özünə həmişəlik peşə seçən qadınlar da var. Onlardan biri də Bolnisi bələdiyyəsinin Svaneti (İmirhəsən) kənd sakini Rəfiqə Qulu qızı Fətullayevadır. Rəfiqə xanım ali təhsilli müəllimədir. Uşaqlıqdan kənd təsərrüfatı işlərinə xüsusi marağı olub. Məhz buna görə də ailə üzvləri ilə birlikdə təsərrüfat yaratmaq, burada heyvandarlıqla məşğul olmaq qərarına gəlir.

Ailənin başçısı Fətulla Fətullayev, övladları Elçin, Yalçın və Elşənlə birlikdə 25 hektar torpaq sahəsinin məhsulundan istifadə etməklə 200 baş iribuynuzlu mal-qara üçün heyvandarlıq ferması yaratmaq barədə ideya qısa müddətdə gerçəkləşdi.

1996-cı ildə "Anata" (Ana – ata) kompleksi belə yarandı. Təsərrüfatda əsas etibarı ilə dənli bitkilər yetişdirmək və dana - toğlu bəsləməklə məşğul olunur. MMC-nin rəhbəri kimi Rəfiqə xanımın arzusu və planları böyükdür. Dövlətin fermerlərə ciddi dəstək proqramından yararlanaraq, təsərrüfatı daha da inkişaf etdirmək üçün verilən səlahiyyətlərdən istifadə etməklə Məhdud Məsuliyyətli Cəmiyyət olaraq Gürcüstandakı, eyni zamanda qonşu ölkələrdəki fermerlərlə (Cəmiyyətin nizamnaməsi ilə buna icazə verilir) əməkdaşlıq imkanlarını axtarır və bununla da həm yeni iş yerlərini artırmaq, həm də bölgənin rifahına müəyyən töhfələr vermək əzmindədir.

Məsuliyyət və intizam uğurun rəhnidir. Rəfiqə Fətullayeva bunları yaxşı bilir və işini məhz bu prinsiplər əsasında qurur. Axı fermer qadın kimi özünü təsdiq etmək başqaları üçün də örnək olar.

Sizə işinizdə uğurlar arzulayırıq, Rəfiqə xanım!

**Bəhram Mehdi**

MÜSABİQƏ

# Dövlət Naziri Aparatının Gənclər üçün "Sülh Mükafatı"

***Müsabiqənin şərtləri:***

***Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Nazirinin Aparatı gənclər arasında "Sülh Mükafatı"nı qazanmaq üçün hər il müsabiqə elan edir.***

Müsabiqənin məqsədi gənclərin Gürcüstanın sülh prosesində rolunu və onların cəlbini gücləndirməkdir ki, bu da Dövlət Naziri Aparatı tərəfindən koordinasiya edilən barışıq və cəlbedici dövlət siyasətinin mühüm prioritetlərindən biridir.

***Müsabiqə üç nominasiya üzrə keçiriləcək:***

**1.** Ən Yaxşı Sülh Fəaliyyəti
**2.** Ən Yaxşı Sülh İdeyası
**3.** Ən Yaxşı Sülh Mesajı

Müsabiqədə 18-35 yaş arası istənilən gənc, bir qrup gənc və ya gənclər təşkilatı, o cümlədən Gürcüstanın işğal olunmuş ərazilərindən olanlar, ərizə təqdim etməklə iştirak edə bilərlər.

Müsabiqədə iştirak həm gəncin/gənclər qrupunun/, gənclər təşkilatının birbaşa müraciəti, həm də vətəndaş sektorundan, beynəlxalq təşkilatlardan və ya ən azı üç nəfərdən ibarət təşəbbüs qrupundan təqdimat ilə mümkündür.

Müsabiqə nəticəsində hər nominasiya üzrə qalib 300. 000 lari məbləğində pul mükafatı ilə təltif olunacaq.

Mükafat aşağıdakı nominasiyalar üzrə veriləcək:

**Nominasiya 1** - Ən Yaxşı Sülhməramlı Fəaliyyət

*Namizəd aşağıdakı şərtlərə cavab verməlidir:*

• İşğal xəttinin hər iki tərəfində yaşayan gürcü və abxaz/gürcü və osetin cəmiyyətinin üzvləri arasında əlaqələrin möhkəmləndirilməsinə və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin təşviqinə yönəlmiş sülhməramlılıq və etimadın yaradılması təşəbbüs(lər)inə xüsusi töhfə.

**Nominasiya 2** - Ən Yaxşı Sülh İdeyası

Namizəd aşağıdakı şərtlərə cavab verməlidir:

• İşğal xəttinin hər iki tərəfində yaşayan gürcü və abxaz/gürcü və osetin cəmiyyətinin üzvləri arasında sülhün qurulması və etimadın yaradılması üçün ən yaxşı təşəbbüs/layihə ideyasının təqdimatı;

• Təqdim olunan təşəbbüsün innovativliyinin və məqsədəuyğunluğunun əsaslandırılması;

• Təşəbbüslə nəzərdə tutulan fəaliyyət işğal olunmuş ərazidə həyata keçirildiyi halda, əgər varsa, yerli tərəfdaş(lar)ın/tərəfdaş təşkilat(lar)ın göstərilməsi.

**Nominasiya 3** - Ən Yaxşı Sülh Mesajı

Namizəd aşağıdakı şərtlərə cavab verməlidir:

• Sülh mesajının aydın şəkildə əks olunduğu gürcü-abxaz/gürcü-osetin cəmiyyətinin üzvləri arasında münaqişənin sülh yolu ilə həlli, sülhün qurulması,




etimadın möhkəmləndirilməsi mövzusunda tədqiqat, elmi və/və ya akademik məqalənin hazırlanması;

• Aparılan akademik fəaliyyət nəticəsində işğal xəttinin hər iki tərəfində yaşayan gürcü-abxaz/gürcü-osetin cəmiyyətinin üzvləri arasında münaqişənin sülh yolu ilə həlli, sülhün yaradılması və/yaxud etimadın yaradılması ideyası təbliğ edilib/populyarlaşdırılıb.

***Hər üç nominasiyada namizəd aşağıdakı ümumi şərtlərə cavab verməlidir:***

• Həyata keçirilən/həyata keçirilməli olan fəaliyyət Gürcüstan qanunvericiliyinə, dövlətin barışıq və cəlbetmə siyasətinin məqsədlərinə, o cümlədən "Daha yaxşı gələcəyə addım" sülh təşəbbüsünə, həmçinin qeyd olunan sahədə qüvvədə olan strateji sənədlərə tam uyğun olmalıdır;

• Müsabiqənin məqsədləri üçün etimad yaradılması ideyası/fəaliyyəti işğal xətləri ilə süni şəkildə bölünmüş cəmiyyətin üzvlərinin, yəni işğal olunmuş ərazilərdə daimi yaşayan və mərkəzi hökumətin nəzarətində olan ərazidə yaşayan şəxslərin cəlb edilməsini/yaxınlaşmasını nəzərdə tutmalıdır;

• Sülhün qurulması/etimad yaradılmasına həsr olunmuş ideya, fəaliyyət və ya iş yalnız Gürcüstanda münaqişənin sülh yolu ilə həllinə və gürcü-abxaz/gürcü-osetin münasibətlərinə aid olmalıdır.

Ərizə 25 iyul 2025-ci il tarixinədək Dövlət Naziri Aparatına gürcü dilində aşağıdakı e-poçt ünvanına təqdim edilməlidir: **press@smr.gov.ge**

Təqdim edilmiş ərizədə aşağıdakılar olmalıdır:

• Namizəd və ya onu təqdim edən şəxs/şəxslər haqqında məlumat, o cümlədən əlaqə məlumatları;

• Namizəd haqqında məlumat - adı, soyadı, qısa bioqrafik məlumatları (təhsil, fəaliyyət sahəsi);

•Namizədin sülhün/etimadın yaradılması prosesinə verdiyi töhfənin qısa təsviri;

• Əlavələr - layihə ideyası, həyata keçirilən fəaliyyətlər haqqında əlavə məlumat, sənədlər, videoçarxlar və/və ya digər köməkçi materiallar (əgər varsa) şəklində.

Göstərilən namizəd/namizədlər qrupu namizədlərin müsabiqədə irəli sürülməsi barədə əvvəlcədən məlumatlandırılmalı və onun namizədliyinə baxılmasına razılıq verməlidir.

Namizəd(lər) "Gənclərin Sülh Mükafatı"nın verilməsi məqsədilə yaradılmış müsabiqə komissiyası tərəfindən seçiləcək. Qalib namizədlərin elan edilməsi və mükafatlandırılması Beynəlxalq Sülh Gününün qeyd olunması (21 sentyabr 2025-ci il) çərçivəsində baş tutacaq.

Müsabiqə ilə bağlı əlavə suallar yaranarsa:

**Əlaqə nömrəsi: 598 60 50 20 -** ***Sofio Letodiani.***

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**13 iyun**

•1373 — İngiltərə kralı III Edvard ilə Portuqaliya kralı I Ferdinand və kraliça Leonora arasında iki dəniz dövlətini birləşdirən " Əbədi Dostluq, Birlik və İttifaq" müqaviləsi imzalanıb. Hər iki dövlət günümüzə qədər bu müqaviləyə sadiq qalıb. Beləliklə bu müqavilə, hələ də qüvvədədir.

•1892 — Kiyevdə Rusiya İmperiyasının ilk elektrik tramvayı işə salınıb.

•1949—Totalitar sistemi tənqid edən Oruellin "1984" adlı romanı ABŞ-də "İlin Kitabı" seçilib.

•2013—**Qiqa Lortkipanidze, gürcü aktyor və rejissor, vəfat edib.**

**14 iyun**

•1775—İkinci Kontinental Konqres İngiltərəyə qarşı vuruşmaq məqsədilə Amerika qitəsindəki 13 müstəmləkənin milis qüvvələrindən Kontinental Ordu qurmaq haqda qərar qəbul edib. Bu tarix ABŞ silahlı qüvvələrinin yaradılma tarixi hesab edilir.

•1940—İkinci Dünya müharibəsi: Hitler Almaniyası qərb hərbi kampaniyası çərçivəsində Parisi döyüşsüz işğal edib. 22 iyunda Fransa Almaniyaya təslim olub və beləliklə faktiki olaraq 1944-cü ilə qədər qərb cəbhəsi ləğv edilib. Vermaxtın (alman ordusu) qərb kampaniyası 6 həftə davam edib.

•2005-ci ildə Cenevrədə Ümumdünya Səhiyyə Assambleyası 14 iyun tarixini Ümumdünya Qan Donoru Günü kimi təsis edib.

**15 iyun**

•313 — Roma İmperatoru Konstantin din azadlığını elan edərək, xristianlığa qarşı təzyiqləri ləğv edib. Onun tərəfindən qəbul edilmiş Milan Ediktinə əsasən, xristianlardan müsadirə edilmiş əmlak sahiblərinə qaytarılıb.

•1667 — Fransız həkimi Jan-Batist Denis dünyada ilk uğurlu qanköçürmə əməliyyatını həyata keçirib. O, 15 yaşlı uşağa təxminən 12 unsiya quzu qanı köçürüb.

•1924 — **Hüseyn Arif, Azərbaycan şairi, anadan olub.**

•2001 — **Şanxay Əməkdaşlıq Təşkilatı Çin, Rusiya, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan liderləri tərəfindən təsis edilib.**

**16 iyun**

•1919—Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Demokratik Respublikası arasında rus vətəndaş müharibəsinin iştirakçılaqrından biri olan çar generalı Denikinin mümkün təcavüzünə qarşı Tbilisidə Azərbaycan-Gürcüstan hərbi müdafiə sazişi imzalanıb.

•Cənubi Afrikada Gənclər Günü qeyd edilir. Bu gün 1976-cı ildə qeyri-ağdərililərin yaşadığı qəsəbələrdə aparteid rejiminə qarşı nümayişin xatirəsinə təsis edilib.

**17 iyun**

•1866—Müxtəlif alman krallıqlarını bir dövlətdə birləşdirmək uğrunda Avstriya İmperiyası və Prussiya krallığı arasındakı rəqabət Avstriya-Prussiya müharibəsinə səbəb olub. Müharibə avqust ayında Prussiya Krallığının qələbəsi ilə nəticələnib.

•1967—Çin Xalq Respublikası ilk hidrogen bombasını uğurla sınaqdan keçirib.

•1995—BMT Baş Assambleyasının 49-cu sessiyasında 17 iyun Səhralaşma və Quraqlıqla Mübarizə Günü kimi təsis edilib.

**18 iyun**

•1583 — İlk həyat sığortası: Londonda vitse-burqomistr Riçard Martin duz taciri Uilyam Gibbonsun həyatını 383 funt sterlinqə sığortalayıb. Sığortanın şərtlərinə görə, Gibbons sığorta tarixindən etibarən bir il ərzində vəfat edərsə, Martin ailəsinə 4800 funt sterlinq ödəməli idi.

•1815 — Belçika ərazisində Napoleon Bonapartın başçılıq etdiyi Fransa ordusu və inglis feldmarşal Vellinqtonun başçılıq etdiyi koalisiya qoşunları arasında Vaterloo döyüşü baş verib. Döyüş Napoleonun məğlubiyyəti və taxtdan devrilməsi ilə nəticələnib.

**19 iyun**

•1846 — Bir il əvvəl Nyu-York sakini Alexandr Kartrayt tərəfindən təsis edilmiş beysbol üzrə ilk matç keçirilib.

•1961 — Küveyt Böyük Britaniyadan müstəqil olub.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## QİQA LORTKİPANİDZE



***Qiqa Lortkipanidze 19 oktyabr 1927-ci ildə Tbilisidə anadan olub.*** Tbilisi Teatr İnstitutunda təhsil alıb. 1950-ci ildə A.Lunaçarski adına Moskva Teatr və İncəsənət İnstitutunun rejissorluq fakültəsini bitirib. 1950-1951-ci illərdə Vilnüs Rus Dram Teatrında işləyib. 1952–1954, 1957–1963, 1963–1967 və 1976–1980-ci illərdə Kote Marcanişvili adına Dövlət Akademik Dram Teatrının direktoru və bədii rəhbəri olub. 1954–1956-cı illərdə Kutaisi L.Mesxişvili Dram Teatrının baş rejissoru, 1963–1965-ci illərdə isə Tbilisi Aleksandr Qriboyedov adına Rus Dram Teatrının baş rejissoru olub. Qiqa Lortkipanidze 1967-ci ildə Rustavidə Dövlət Dram Teatrını yaradıb və 1976-cı ilə qədər ona rəhbərlik edib. 1984-1986-cı illərdə o, Gürcüstan Televiziyasının bədii rəhbəri vəzifəsini icra edib. 1985-ci ildən Vaso Abaşidze adına Musiqili Teatra bədii rəhbərlik edib. 1999-2000-ci illərdə Şota Rustaveli adına Teatr və Kino Universitetinin rektoru olub.

Qiqa Lortkipanidze 20-ci əsrin gürcü dramaturgiya və kinosunda mühüm iz qoyan şəxsiyyətlərdən biri olub. 1952-ci ildə o XVIII əsrin italyan dramaturqu Qoldonun "Mehmanxana sahibəsi" adlı ərərini, 1959-cu ildə 20-ci əsrin gürcü yazıçısı Konstantin Lortkipanidzenin "Kolxida şəfəqi"ni, 1960-cı və 1961-ci illərdə isə Nodar Dumbadzenin "Mən, nənəm, İliko və İlarion" və "Günəşi görürəm" əsərlərini səhnələşdirib.

Qiqa Lortkipanidze bir çox məşhur gürcü filminin rejissoru və ssenari müəllifidir. O, Quram Qabeskiria ilə birlikdə 1978-ci ildə məşhur gürcü yazıçı Çabua Amirecibinin "Data Tutaşxia" romanının əsasında çəkilən eyniadlı filmin rejissoru olub. 1979-cu ildə gürcü aktyor və rejissor Qiuli Çoxonelidze ilə birlikdə Böyük Vətən Müharibəsi zamanı Gürcüstanda aparılan casus fəaliyyətlərini əks etdirən "Əcdadların yurdu" filmini çəkib. 1990-cı ildə çıxan "Ağ bayraqlar" filminin rejissoru da Qiqa Lortkipanidzedir.

Qiqa Lortkipanidze ictimai – siyasi fəaliyyət də göstərib. O, 1992, 1995-ci və 1999-cu illərdə Gürcüstan Parlamentinin üzvü olub.

Qiqa Lortkipanidze 13 iyun 2013-cü ildə doğma şəhəri Tbilisidə vəfat edib.

## HÜSEYN ARİF



***Hüseyn Arif kimi məşhur olan Hüseyn Camal oğlu Hüseynzadə 15 iyun 1924-cü ildə Qazax qəzasının Yenigün kəndində anadan olub.*** Gələcək ədib uşaqlıqdan bir sıra aşıqların məclislərinin dinləyicisi olub ki, bu da sonralar şairin yaradıcılığına güclü təsir göstərib. Orta məktəbi bitirdikdən sonra 1937 - 1940-cı illərdə Bakıda yerləşən Mirzə Ələkbər Sabir adına Pedaqoji Texnikumunda təhsil alıb. 1940-1942-ci illərdə pedaqoji fəaliyyət göstərib. 1942-ci ildə Böyük Vətən Müharibəsi cəbhəsinə çağırılıb, burada Ukrayna, Polşa, Çexoslovakiya və Almaniyanın azad edilməsi uğrunda döyüşlərdə iştirak edib.

Yaradıcılıq fəaliyyətinə lirik şair olaraq məhz bu illərdə başlayıb. 1946-cı ildə H. Arifin "Komsomol bileti" adlı şeiri ilk dəfə "Ədəbiyyat və İncəsənət" qəzetində dərc olunub. 1946-cı ildə ordudan tərxis olunduqdan sonra Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olub, 1951-ci ildə oranı bitirib. 1951-1952-ci illərdə Moskvada yerləşən SSRİ Elmlər Akademiyasının Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aspiranturasında təhsil alıb.

1957-ci ildə Hüseyn Arifin "Azad" tamaşası M. F. Axundov adına Opera və Balet Teatrında nümayiş edilib.

Hüseyn Arif olduqca aktiv ictimai-mədəni və elmi fəaliyyət göstərib. 1957-1959-cu illərdə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr üzrə Azərbaycan Cəmiyyətinin şöbə müdiri olub. 1965-1967-ci illərdə "Azərnəşr" bədii ədəbiyyat redaksiyasının baş redaktoru vəzifəsini icra edib. 1967-1968-ci illərdə "Gənclik" mətbəəsində bədii ədəbiyyat şöbəsinin müdiri olub.

Hüseyn Arif 1971-ci ildə "Dağ kəndi" poemasına görə "Qızıl Oraq" mükafatina layiq görülüb. 1974-cü ildə ədibin "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi M. Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulub. Onun əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunub. 1976-cı ildə Yuqoslaviyada (Sarayevo) Beynəlxalq poeziya günlərinin, 1979-cu ildə Liviyada SSRİ günlərinin iştirakçısı olub.

Xalq şairi Hüseyn Arif 14 sentyabr 1992-ci ildə Bakıda vəfat edib.

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATI




Şanxay Əməkdaşlıq Təşkilatı 8 Asiya dövlətini (Hindistan, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Tacikistan, İran və Özbəkistan), eləcə də Rusiya Federasiyasını və Belarusu birləşdirən beynəlxalq təşkilatdır. Əfqanıstan və Monqolustan sözügedən təşkilatın müşahidəçiləri statusuna malik dövlətlərdir, Azərbaycan, Ermənistan, Bəhreyn, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv adaları, Myanma, Nepal, BƏƏ, Səudiyyə Ərəbistanı, Türkiyə, Şri-Lanka isə - dialoq məsələləri üzrə əmakdaşları. Təşkilatın mərkəzi Çinin paytaxtı Pekində yerləşir. Rəsmi dillər Çin və rus dilləridir. Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsini 1 yanvar 2025-ci ildən Qazaxıstanın keçmiş müdafiə naziri Nurlan Ermekbayev icra edir.

Şanxay Əməkdaşlıq Təşkilatı hərbi blok və ya açıq müntəzəm təhlükəsizlik konfransı deyil, aralıq mövqeyə sahib beynəlxalq təşkilatdır. Təşkilatın əsas məqsədləri iştirakçı dövlətləri birləşdirən geniş məkanda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizm, separatizm, ekstremizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə, iqtisadi əməkdaşlığın, enerji tərəfdaşlığının, elmi və mədəni qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi elan edilib.

Şanxay Əməkdaşlıq Təşkilatının təməli 1996-cı ildə qoyulub. Həmin zaman Çin, Rusiya, Qazaxıstan, Tacikistan və Qırğızıstanı birləşdirən "Şanxay Beşliyi" yaradılıb. "Şanxay Beşliyi"nə üzv ölkələrin illik sammitləri 1997-ci ildə Moskvada, 1998-ci ildə Almatıda (Qazaxıstan), 1999-cu ildə Bişkekdə (Qırğızıstan) və 2000-ci ildə Düşənbədə (Tacikistan) keçirilib. 13 -15 iyun 2001-ci ildə Çinin Şanxay şəhərində keçirilən Şanxay Forumu zamanı beş üzv ölkə Özbəkistanı təşkilata qəbul edərək, "Şanxay Beşliyi"nin adını "Şanxay Əməkdaşlıq Təşkilatı"na dəyişib.

Təşkilatın strukturu aşağıdakı orqanlardan ibarətdir:

**1.**Təşkilatın əsas fəaliyyət istiqamətlərini müəyyən edən Dövlət Başçıları Şurası daxili struktur və fəaliyyət, digər dövlətlərlə qarşılıqlı fəaliyyət məsələlərini həll edir. Şura ildə bir dəfə müntəzəm sessiyalar üçün toplanır;

**2.** Hökumət Başçıları Şurası birgə iştirak prinsipi əsasında formalaşan Şanxay Əməkdaşlıq Təşkilatının büdcəsini qəbul edir, Təşkilat çərçivəsində əməkdaşlığın konkret, xüsusilə iqtisadi inkişaf sahələri ilə bağlı əsas məsələləri nəzərdən keçirir və həll edir;

**3.** Xarici İşlər Nazirləri Şurası Təşkilatın cari fəaliyyəti məsələlərinə, o cümlədən Xarici İşlər Nazirləri Şurasının iclasının hazırlanmasına baxır və həll edir, Təşkilatın qərarlarının həyata keçirilməsi üçün tədbirlər görür və beynəlxalq məsələlər üzrə ŞƏT çərçivəsində məsləhətləşmələr aparır;

**4.** ŞƏT çərçivəsində müvafiq sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret məsələlərin nəzərdən keçirilməsi üçün nazirlik və/və ya idarə rəhbərlərinin görüşləri keçirilir;

**5.** Katiblik ŞƏT-in daimi fəaliyyət göstərən inzibati orqanıdır;

**6.** Koordinatorlar Şurası Təşkilatın cari fəaliyyətini əlaqələndirir və idarə edir;

**7.** Regional antiterror strukturu;

**8.** Banklararası Assosiasiya.



GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN İDMAN

## RONALDU: "KARYERAMIN SONUNA YAXINAM"



*"Karyeramın sonuna daha yaxınam, nəinki əvvəlinə".*

Bunu Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu komandasının UEFA Millətlər Liqasının finalında qələbə qazanmasından sonra millidəki gələcəyi ilə bağlı sualı cavablandırarkən deyib.

*"Siz bilirsiniz mənim neçə yaşım var, aydındır, karyeramın sonuna daha yaxınam, nəinki əvvəlinə. Amma hər andan həzz almalıyam. Əgər ciddi zədə almasam, oynamağa davam edəcəyəm"*, - deyə Ronaldu vurğulayıb.

Qeyd edək ki, turnirin həlledici oyununda Portuqaliya millisi İspaniya yığmasın qalib gəlib (2:2, 5:3 - penaltilər). Ronaldu bu qarşılaşmada 1 qol vurub.

Matçda zədələnən Ronaldu 88-ci dəqiqədə əvəzlənib. Xatırladırıq ki, qırx yaşlı futbolçu Portuqaliya millisi ilə üçüncü titulunu qazanıb.

## MERAB DVALİŞVİLİ YENİDƏN ŞON O'MALLEYİ MƏĞLUB EDƏRƏK UFC TİTULUNU QORUYUB

***Merab Dvalişvili amerikalı Şon O'Malleyə bir dəfə də olsun qisas şansı verməyib - super yüngül çəkiyə (61 kq) malik gürcü döyüşçü UFC çempionluq kəmərini qoruyub.***



Titul uğrunda mübarizə Nyuarkda baş tutub. "Maşın" kimi tanınan Merab qarşısıalınmaz olub, Dvalişvili üçüncü raundda boğucu hərəkət ilə qalib gəlib.

UFC təşkilatçıları onun çıxışını gecənin ən yaxşı çıxışı adlandırıb və o, əlavə 50 min dollar alacaq.

Amerika mediası zalda ABŞ prezidenti Donald Trampın olduğunu qeyd edib. O, Dvalişvilini qələbədən sonra təbrik edib və məğlub olan O'Malleyi ruhlandırıb.

34 yaşlı gürcü ötən ilin sentyabrında Şon O'Malleyi məğlub edərək titulunu qazanıb və bu gün karyerasında ikinci dəfə, yanvarda Umar Nurməhəmmədovu məğlub etdikdən sonra birinci dəfə bu titulunu qoruyub.

Merab Dvalişvilinin qarışıq döyüş növləri üzrə 24 döyüşdə 20 qələbə və 4 məğlubiyyət rekordu var. Bu qələbə onun ardıcıl 13-cü qələbəsi olub. Bu göstəricidə o, Həbib Nurməhəmmədov, Demetrius Conson, Georges St-Pierre, Maks Holloway və Con Cons ilə birinci yeri bölüşür. Yalnız Kamaru Usman, İslam Mahaçev (15) və Anderson Silva (16) ardıcıl daha çox döyüşlərdə qalib gəliblər.

Gürcü döyüşçü sonuncu dəfə 2018-ci ildə məğlub olub və o vaxtdan bəri super çəki dərəcəsində titula gedən yolda dörd keçmiş UFC çempionunu məğlub edib.

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

## AZƏRBAYCAN VƏ GÜRCÜ AKTYORLARI GƏNCƏDƏ BİR SƏHNƏNİ BÖLÜŞÜBLƏR



***Gəncə Dövlət Milli Dram Teatrında gürcü yazarı N. Dumbadzenin "Kukaraça" ta-maşasının premyerası olub.***

Mədəniyyət Nazirliyindən bildirilib ki, Gürcüstanın Ozurgeti Milli Dram Teatrı ilə birgə layihə çərçivəsində ərsəyə gələn tamaşada Azərbaycan və gürcü aktyorları eyni səhnəni bölüşüblər.

Layihənin bədii rəhbəri Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Aqil Bəhramlı, koordinatoru Gəncə Dövlət Milli Dram Teatrının aktyoru Yusif Cəfərovdur.

Tamaşanın quruluşçu rejissoru Gürcüstanın Əməkdar incəsənət xadimi, Ozurgeti Milli Dram Teatrının bədii rəhbəri və direktoru Vasili Ciqoqidze, quruluşçu rəssamı Rustavi teatrının baş rəssamı Lomqul Murusidze, rəssamı Mirzə Mehdi, xoreoqrafı Zeynəb Hüseynovadır.

Tamaşanın növbəti premyerası iyunun 7-si saat 19:00-da Bakı şəhərində Azərbaycan Dövlət Akademik Musiqili Teatrında olub.

ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti guşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəhəri, Tsereteli prospekti, 142, birinci mərtəbə.

## MEYMUNLARIN GÜNDƏLİK QAYĞISI



Foto E.Şahvələdindir.

PROBLEM

## BMT: DÜNYADA DOĞUM SƏVİYYƏSİ AZALIR

***BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən dərc olunan yeni hesabatda dünyada doğum səviyyəsində kəskin azalma tendensiyasının olduğu bildirilir.***



Dünyanın üçdə birini əhatə edən 14 ölkədə 14 min insanla keçirilən sorğuya əsasən, hər beş nəfərdən biri arzuladığı sayda övlad sahibi olmadığını və ya olmayacağını bildirib.

Cənubi Koreya, İtaliya, Almaniya, Braziliya, Hindistan və Nigeriya kimi ölkələri əhatə edən araşdırma göstərir ki, ailə qurmağa və genişləndirməyə əsas maneə maliyyə çatışmazlığıdır. Respondentlərin 39 faizi övlad sahibi ola bilməmələrinin əsas səbəbi kimi maddi çətinlikləri göstərib. Cənubi Koreyada bu rəqəm 58 faizi, İsveçdə isə cəmi 19 faizi təşkil edib.

Ümumilikdə, respondentlərin yalnız 12 faizi sonsuzluğu səbəb kimi göstərib. Amma bu göstərici Tailand (19%), ABŞ (16%) və Hindistan (13%) kimi ölkələrdə daha yüksək olub.

UNFPA-nın icraçı direktoru Nataliya Kanem vurğulayıb ki, problem insanların övlad istəməməsində deyil, arzuladıqları ailəni qura bilməmələrindədir. O, bunun "əsl böhran" olduğunu bildirib.

Bu araşdırma UNFPA-nın əvvəlki yanaşmasından fərqli olaraq, aşağı doğum göstəricilərinə diqqətin artdığını göstərir. Agentlik bu tendensiyalara balanslı yanaşmanı tövsiyə edir.

MƏDƏNİYYƏT

## GÜRCÜSTANDA 'KÖRÜK' JURNALI YENİDƏN NƏŞR OLUNMAĞA BAŞLAYIB



***Tbilisidə Gürcüstan Yazıçıları Birliyinin (GYB) Azərbaycan bölməsinin dərc etdirdiyi "Körük" adlı ədəbiyyat və sənət jurnalının uzun fasilədən sonra yenidən nəşrinə başlanılıb.***

Tbilisidə Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyində yeni nəşrin təqdimatı olub.

Mərasimdə GYB-nin Azərbaycan bölməsinin rəhbəri, dərginin baş redaktoru Allahverdi Təkləli, türkiyəli şair Aytekin Karpaça, azərbaycanlı ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bildirilib ki, Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyinin (TİKA) dəstəyi ilə işıq üzü görmüş nəşrdə Gürcüstanın azərbaycanlı şair və yazıçıların əsərləri ilə yanaşı, müasir Azərbaycan, gürcü və dünya ədəbiyyatının nümunələri də yer alıb.

A. Təkləli deyib ki, "Körük" jurnalının məqsədi Gürcüstanın azərbaycanlı icmasının ədəbi irsini qoruyub saxlamaq, təbliğ etmək və yeni qələm sahiblərini cəmiyyətə tanıtmaqdır. O, jurnalın yenidən nəşr olunmasına göstərdiyi maddi dəstəyə görə, TİKA-ya təşəkkürünü bildirib, jurnalın iki ayda bir dəfə nəşr olunacağını bildirib.

GYB-nin sədri Bağatur Arabuli deyib ki, bir neçə il əvvəl Tbilisidə Azərbaycan və gürcü dillərində "Şəfəq-Sxivi" və "Körük" jurnalları nəşr olunurdu. Sonradan müxtəlif səbəblərdən bu jurnalların nəşri dayandırıldı. Lakin bu gün "Körük" jurnalının yenidən nəşr olunması mühüm əhəmiyyət kəsb edir.

Sonda tədbir bədii hissə ilə davam edib, aşıq Nargilə Mehtiyeva ifalarını təqdim edib, müxtəlif şeir nümunələri səsləndirilib.

**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor: Xaləddin YOLÇUYEV
Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.